AZƏRBAYCAN www.azerbaijan-news.az

## *Şəhid atası:*

# Oğul Vətən üçündür

### *Azərbaycan Ordusunun şəhid hərbçisi Nicat İsgəndərovun təltif edildiyi medal onun ailəsinə təqdim olunub*



Qoşunların təmas xəttində erməni işğalçıları ilə döyüşdə şəhid olan "N" saylı hərbi hissənin giziri İsgəndərov Nicat Bəhruz oğlunun Prezidentin sərəncamı ilə layiq görüldüyü "İgidliyə görə" medalı onun ailəsinə təqdim edilib.

Bu münasibətlə Tərtər şəhərinin mərkəzi meydanında keçirilən mərasimdə Müdafiə Nazirliyinin, Tərtər Rayon İcra Hakimiyyətinin nümayəndələri, Qarabağ müharibəsi veteranları və əlilləri, rayon ictimaiyyəti, hərbi qulluqçular və məktəblilər iştirak ediblər. Əvvəlcə respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, şəhidlərin ruhlarına dualar oxunub.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək aprel döyüşlərində Azərbaycan hərbçilərinin göstərdiyi şücaətdən, tərtərlilərin torpaqlarımızın müdafiəsində fəal iştirakından, Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışıb. Bildirib ki, cəbhədə baş verən son hadisələr zamanı Tərtər camaatı ordu ilə monolit birlik nümayiş etdirdi. Məhz xalqla ordunun bu birliyi sayəsində strateji əhəmiyyətə malik bir neçə yüksəklik düşməndən azad edildi. Ordumuz mövqelərini möhkəmlətdi. Düşmən bir daha anladı ki, Azərbaycanın güclü ordusu, qətiyyətli Ali Baş Komandanı var.

Şəhidin ailəsinə başsağlığı verən Müdafiə Nazirliyinin zabiti, polkovnik Abdulla Qurbani bildirib ki, cəbhə xəttində erməni silahlılarının bütün təxribat cəhdlərinin qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınır, düşmənə layiqli cavab verilir.

Anım mərasimində Abdulla Qurbani "İgidliyə görə" medalını şəhidin atasına təqdim edib.

Öz çıxışı ilə tədbir iştirakçılarına kövrək hisslər yaşadan şəhid atası Bəhruz İsgəndərov deyib: "Oğul Vətən üçündür. Şəhidlər ölməz, Vətən bölünməz".

Tədbirdə vətənpərvərlik mahnıları səsləndirilib.

**AZƏRTAC**